# DSMF-də uğurlu tendensiya cari ilin 6 ayında da davam edib

*Dövlət Sosial Müdafiə Fondunun gəlirləri pensiya və müavinətlərin qrafikdən əvvəl maliyyələşdirilməsinə imkan verib.*

Dövlət Sosial Müdafiə Fondunun gəlir və xərclərinin icrası, sığorta-pensiya sistemində beynəlxalq standartların tətbiqi və əmək pensiyaçılarının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri 2015-ci ilin 6 ayında da uğurla davam etdirilib. Bu barədə jurnalistlərə açıqlama verən Dövlət Sosial Müdafiə Fondunun sədri Elman Mehdiyev cari ilin yanvar-iyun aylarında Fondun cəmi gəlirlərinin 1466,5 milyon manat təşkil etməklə, əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,2 faiz və ya 44,8 milyon manat artdığını vurğulayıb. Fondun sosial sığorta gəlirləri 8,0 faiz artaraq 870,2 milyon manat təşkil edib. Bu daxilolmaların 65,3 faizi və ya 568,5 milyon manatı qeyri-büdcə sektorunun payına düşüb ki, bu da əvvəlki ilin birinci yarısına nisbətən 9,5 faiz və ya 49 milyon manat yuxarıdır.

E.Mehdiyev bildirib ki, qeyri-büdcə daxilolmalarının belə sürətli artımı Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi genişmiqyaslı islahat tədbirləri nəticəsində ölkədəki orta aylıq əməkhaqqının artımı, daimi yeni iş yerlərinin yaradılması və əməkhaqlarının leqallaşdırılması dərəcəsinin yüksəldilməsinin birbaşa təsirinin göstəricisidir. Bu artım tendensiyası, eyni zamanda, dövlət büdcəsindən Dövlət Sosial Müdafiə Fonduna ayrılan transfertin ötən ilin müvafiq dövrü ilə müqayisədə 18 milyon manat azalmasına səbəb olub.

Cari ilin 6 ayı ərzində DSMF-nin xərcləri 1457,7 milyon manat təşkil edib. Bu vəsaitin 98,2 faizi və ya 1431 milyon manatı əhaliyə ödənişlərə yönəldilib. Fond üzrə ümumi daxilolmaların səviyyəsi pensiya və müavinətlərin qrafikdən əvvəl maliyyələşdirilməsinə imkan verib.

Təqdirəlayiq hal olaraq qeyd etmək lazımdır ki, Dövlət Sosial Müdafiə Fondunun elektron xidmətlərindən istifadə sayı 2,6 dəfə artıb.

2015-ci ilin birinci yarısında Dövlət Sosial Müdafiə Fondunun öz saytı, “Elektron hökumət portalı” və “Elektron ödəniş portalı” vasitəsilə əhaliyə təqdim etdiyi elektron xidmətlərdən ümumilikdə 1 milyon 300 minə yaxın istifadə sayı qeydə alınıb ki, bu da 2014-cü ilin müvafiq dövrünə nisbətən 2,6 dəfə artıq olmaqla, keçən ilin illik göstəricisi səviyyəsindədir. Bu barədə açıqlamasında fondun sədri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının əhəmiyyətindən bəhs edərək ötən dövrdə əhalini maraqlandıran, sığorta-pensiya sisteminə aid bütün məsələlərə aydınlıq gətirilməsi məqsədilə çoxsaylı mərkəzi və regional təqdimatların keçirildiyini, həmçinin elektron xidmətlər mövzusunda xüsusi reklam çarxının hazırlanaraq te-




lekanallarda yayımlandığını diqqətə çatdırıb.

Azərbaycanın sığorta-pensiya sistemində qabaqcıl dünya təcrübəsinə uyğun avtomatlaşdırılmış infrastruktur və texnoloji baza qurulmaqla, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi nəticəsində bütün mövcud proseslərin elektronlaşdırılması təmin edilib. Dövlət Sosial Müdafiə Fondu tərəfindən əhaliyə göstərilən xidmətlərin innovativ yeniliklər və müasir texnologiyalar əsasında səmərəli təşkili və təkmilləşdirilməsi işinin uğurla davam etdirilməsi nəticəsində “Elektron hökumət” portalının statistikasına əsasən DSMF-nin göstərdiyi elektron xidmətlər ən çox istifadə olunan xidmətlər sırasında ilk yerləri tutur. Sosial sığorta haqlarının ödənişi və hesabatlılığı sahəsində avtomatlaşdırma nəticəsində Azərbaycan “Doing Business 2015” hesabatında 32 pillə irəliləyib.

**Mustafa KAMAL,**
**“Respublika”.**